# MİLLİ TƏHSİL TARİXİMİZİN MƏNƏVİ DAYAĞI – İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI



**Hümeyir Əhmədov,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri, pedaqogika üzrə elmlər doktoru, professor, Rusiya Təhsil Akademiyasının xarici üzvü, RTA-nın əməkdar elm və təhsil xadimi*
*e-mail: humeyir@gmail.com*

**UOT:** 37; 930.85

**Xülasə**. *Azərbaycanda pedaqogika elminin yayılması və inkişafı, xalq maarifinin bütöv bir dövrü, məhz Qori və İrəvan müəllimlər seminariyası məzunlarının fəaliyyəti ilə bağlıdır. Məqalədə xalq maarifi, məktəb, ədəbiyyat, mədəniyyət və incəsənətin bir çox nümayəndələrinin ilk pedaqoji təhsillərini, məhz Qori və İrəvan müəllimlər seminariyasında almalarından danışılır. Bu təhsil ocaqlarının milli təhsil tariximizdəki yeri və rolu bu gün də öyrənilir, tədqiq edilir. Prezident İlham Əliyevin İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyinin keçirilməsi ilə əlaqədar imzaladığı Sərəncam da bu seminariyanın tarixdə necə dərin bir iz qoyduğunun sübutudur.*

***Açar sözlər:*** *İrəvan Müəllimlər Seminariyası, Qadın "rus-tatar" məktəbi, "Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında" Qanun, Uluxanlı kənd məktəbi, Nəriman Nərimanov adına İrəvan Türk Pedaqoji Texnikumu, "Zəngi" qəzeti, Uluxanlı məktəbinin 125 illik yubileyinin keçirilməsi haqqında sərəncamlar.*

***Key words:*** *Irevan Teachers' Seminary, Women's "russian-Tatar" school, Law "On the Status of Transcaucasian Schools", Ulukhanli village school, Irevan Turkish Pedagogical College named after Nariman Narimanov, "Zangi" newspaper, orders on holding 125-anniversary of the Ulukhanly school.*

***Ключевые слова:*** *Ираванская Учительская Семинария, Женская «русско-татарская» школа, закон «О положении закавказских школ», сельская школа Улуханлы, Иреванский Турецкий Педагогический Колледж имени Наримана Нариманова, газета «Занги», распоряжения о проведении 125-летия школы Улуханлы.*

Azərbaycanın məktəb və pedaqoji fikir tarixində xüsusi yeri olan İrəvan təhsil mühiti, xüsusilə çar Rusiyası dövrü buradakı təhsil müəssisələri, onun müəllimləri və məzunlarının tədris metodiki fəaliyyətlərinin ümumazərbaycan məktəb təhsili tarixindəki yeri mühüm hadisədir. Qədim Azərbaycan torpağı olan İrəvan milli-ictimai fikir tariximizdə özünəməxsus yer tutur. Uzun zaman İran və Türkiyənin şimalda xüsusi önəm verdikləri vacib sosial-iqtisadi və mədəni-maarif mərkəzlərindən biri, eləcə də xanlıqlar dövründə cənub-şimal ticarət qovşağı olmaqla müstəsna əhəmiyyət kəsb etmişdir. Çar Rusiyasının işğalınadək müsəlman milli maarifçiliyinin aparıcı elmi və təhsil mərkəzlərindən olan İrəvan işğaldan sonra bütün potensialını bir tərəfdən işğalın dağıdıcı təsirini aradan qaldırmağa, digər tərəfdən də yeni rusdilli təhsil sayəsində Rusiya və Avropa mədəniyyətinə qovuşmağa səfərbər et-

mişdir. İrəvan quberniyası tarixi transformasiyanın aparıcı geosiyasi mərkəzinə çevrilərək, Rusiya İmperiyasının cənubunda öz əhəmiyyətini qorumuşdur.

1829-cu il avqust ayının 2-də Rusiya Maarif Nazirliyi "Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında" Qanun qəbul etmişdir. Burada qəza məktəblərinin yaranması və ümumi təhsil sistemi ilə idarə edilməsi öz əksini tapmışdır. Artıq XIX əsrin 70-ci illərində Cənubi Qafqazın müxtəlif yerlərində açılan həmin məktəblərdə elmin əsaslarını uşaqlara yeni üsulla tədris edən təhsil ocaqlarının ciddi şəkildə təşkilinə başlanıldı. Cənubi Qafqazda başlanılan bu maarifçilik hərəkatına İrəvanda da onlarla tərəqqipərvər azərbaycanlı ziyalı qoşularaq gənclərin təhsilə cəlb edilməsi uğrunda mübarizəyə başladı. 1832-ci ilin əvvəlində açılmış İrəvan qəza məktəbi, 1869-cu ildə progimnaziya, 1881-ci ildən isə 5 sinifli gimnaziya olaraq fəaliyyət göstərmişdir. Bundan başqa, İrəvanda yeni üsullu ana dilli məktəbi Məşədi Molla İsmayıl Hacı Kazımov tərəfindən 1882-ci ilin mart ayının 28-də açıldı. 1881-ci il noyabr ayının 8-dən isə İrəvan Müəllimlər Seminariyasının fəaliyyətə başlaması ilə şəhərin yeni tipli ictimai-pedaqoji mühitinin formalaşması prosesi başlanmışdır. 1881-ci il noyabr ayının 8-də İrəvanda daha bir təhsil müəssisəsi – İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladı. Burada müxtəlif millətlərin nümayəndələri ilə yanaşı, azərbaycanlılar da təhsil alırdı. Yeri gəlmişkən, onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyası və Gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. Seminariyada tatar dilini (Azərbaycan) Axund Məmməd Bağır Qazızadə tədris edirdi. O, 1853-cü ildə İrəvanda anadan olmuş, İrəvan progimnaziyasını bitirmişdir. Yüksək biliyə malik olan Axund Məmməd Bağır Qazızadə, həm də seminariyada Azərbaycan bölməsinə rəhbərlik edirdi. Yerli maarifçilərin səyləri nəticəsində 1898-ci ildə İrəvan şəhərində və Böyük Vedidə yeni üsullu "rus-Azərbaycan" məktəbləri açılmış, 1901-ci ildə isə İrəvanda qadın "rus-tatar" məktəbi fəaliyyətə başlamışdır.

Axund Məmməd Bağır Qazızadə 1911-ci ildə İrəvan Müəllimlər Seminariyasının bir qrup əməkdaşları ilə Tiflisdə Azərbaycan dilində nəşr olunmuş Ana dili dərsliyinin həmmüəlliflərindən biri idi. Aparılan araşdırmalardan məlum olur ki,



seminariyanın Azərbaycan bölməsinin rəhbəri Axund Məmməd Bağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, eləcə də gənc soydaşlarımızın seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır.

Tədqiqatlardan aydın olur ki, 1906-cı ilin iyun ayında Cəlil Məmmədquluzadə İrəvanda olmuş, seminariyada qabaqcıl azərbaycanlı ziyalılarla, müəllim və tələbələrlə görüş keçirmiş, "Molla Nəsrəddin" jurnalı barədə geniş fikir mübadiləsi aparmışdır. "Molla Nəsrəddin" jurnalının İrəvanda özünəməxsus yer tutmasında İrəvan Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin müəllimləri və tələbələrinin də böyük rolu olmuşdur. "Tuti", "Zənbur", "İqdam", "İrşad", "Babayi-Əmir", "Məzəli", "Kaspi", "Şəlalə", "Sovqat", "Kəşkül", "Tərcüman" və s. bu kimi mətbuat orqanlarının da İrəvanda yayılmasında azərbaycanlı ziyalıların və tələbələrin böyük rolu olmuşdur.

Seminariyada Bakıdan, Naxçıvandan, Dağıstandan və başqa şəhərlərdən də tələbələr təhsil alırdı. Seminariyanı bitirən məzunlara kənd ibtidai məktəb müəllimi vəsiqəsi verilirdi. Burada rus və Azərbaycan dili, riyaziyyat, coğrafiya, idman və digər fənlərlə yanaşı, musiqi fənni də tədris edilirdi. 1885-ci ildə seminariyada musiqi fənnini tədris edən N.Kasradzenin rəhbərliyi altında 69 nəfər musiqi təhsili almışdır ki, onların arasında azərbaycanlılar da var idi.

İrəvan Müəllimlər Seminariyasının məzunları Cənubi Qafqazda milli maarifçiliyin inkişaf etdirilməsi istiqamətində çox böyük rol oynamışlar. Onlar azərbaycanlılar yaşayan bölgələrdə yeni məktəblərin açılmasında, azərbaycanlı balalarının təhsilə cəlb edilməsində fəal iştirak etmişlər. Bu maarif fədailəri daha çox İrəvanda, Naxçıvanda,

Azərbaycanın müxtəlif bölgələrində milli intibah istiqamətində böyük fədakarlıq göstərirdilər. Məmməd Axundov, İbadullah bəy Muğanlinski, Məmməd Vəli Qəmərlinski, Cəfər Kərimov və başqaları İrəvanda xalqımızın mədəni yüksəlişi yolunda təkcə səy və bacarıqlarını deyil, həyatlarını və maddi imkanlarını da bu ülvi məqsədə sərf etmişlər. Cəfərbəy Cəfərbəyov İrəvanda, həm də III dərəcəli xüsusi məktəb açmağa nail olmuş, eyni zamanda açdığı pansionata rəhbərlik etmişdir. Cəfərbəy 1897-ci ildə İrəvan Gimnaziyasının hazırlıq sinfini, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. 1911-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirən Əsgər Axundov burada III dərəcəli 1 sinifli, pansionlu məktəb açmağa nail olmuşdur. Seminariyanın məzunu olmuş, əslən Vedili Şəmdin bəy Mahmudbəyov 1903-cü ildən 1917-ci ilədək Uluxanlı kənd məktəbinin, Şıxəli bəy Firudinbəyov Qəmərli kənd məktəbinin, Yusif Babayev Dvin-Aysor kənd məktəbinin, Mirzə Cabbar Məmmədov Göyməscid kənd məktəbinin, İbadullah bəy Muğanlinski Dərəçiçək kənd məktəbinin müdirləri olmuşdur. İlya bəy Mahmudbəyov, Əhməd Haşimov Çobankərə kəndində, Şıxəli bəy Firudinbəyov, Cəlil Mirzəyev, Mirzə Məhəmməd Axundov Qəmərlidə, Həsən bəy Qaziyev, Axund Məmməd Bağır Qazızadə İrəvanda, Məmməd bəy Qaziyev Uluxanlıda, Fərəməz bəy Mahmudbəyov Böyük Vedidə, Cəfər Kərimov Şərurda müəllim işləmişlər. İrəvanda və bölgələrdə fəaliyyət göstərən bu müəllimlər milli tərəqqi üçün çox böyük işlər görmüşlər. 1895-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirmiş Tağı bəy Səfiyev də uzun müddət Naxçıvanın Nehrəm kəndində müəllim işləmişdir. Həmin dövrdə onun "Nehrəm kəndi" adlı kitabçası da işıq üzü görmüşdür. İrəvan Müəllimlər Seminariyasının məzunlarından biri də Həsən Səfərli olmuşdur. Rus dili və riyaziyyatın gözəl bilicisi olan Həsən Səfərli 1917-ci ildən 1919-cu ilin ortalarınadək Naxçıvanda fəaliyyət göstərən "Rüşdiyyə" məktəbində də dərs demişdir. O, eyni zamanda 1919-cu ildə Naxçıvanda kimsəsiz uşaqlar evinin müdiri işləmişdir. 1965-ci ildə isə Əməkdar müəllim adına layiq görülmüşdür.

İrəvan Müəllimlər Seminariyasının görkəmli məzunlarından biri Həsən bəy Qaziyev 1879-cu ildə İrəvan şəhərində anadan olmuşdur. 1896-cı ildə İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Uluxanlı məktəbində rus dili müəllimi, sonra isə 1918-ci ilədək İrəvanın müxtəlif milli məktəblərində rus dili müəllimi işləmişdir. Həsən bəy həm də İrəvan Quberniyası müsəlmanlarının dini icmasının üzvü idi. O, 1918-ci ildə erməni daşnaklarının törətdikləri qətliamlar zamanı Naxçıvana köçmüş və müxtəlif məktəblərdə rus dilini tədris etmişdir.




*İrəvan Müəllimlər Seminariyasının müəllim və tələbələri, 1917-ci il.*

İrəvan Müəllimlər Seminariyasının məzunları sırasında Əli İbrahimov da vardır. O, 1894-cü ildə Ağdamda anadan olmuş, uzun müddət xalq maarifi sahəsində fəaliyyət göstərmişdir. Ə.İbrahimov 1914-cü ildə seminariyanı bitirdikdən sonra inqilabi hərəkata qoşulmuş və bu hərəkatın fəallarından biri olmuşdur. O, 1914-cü ildən 1916-cı ilədək Böyük Vedi kəndində müəllim işləmişdir. 1916-cı ilin əvvəllərində Ağdam rayonuna köçmüş və burada rus dilini tədris etmişdir.

Qərbi Azərbaycanda xalqın maariflənməsində, Abbasqulu bəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"un tərkibində erməni şovinistlərinə qarşı mübarizədə İrəvan Müəllimlər Seminariyasının və Gimnaziyasının Azərbaycan şöbəsini bitirənlərin böyük xidmətləri olmuşdur. Adlarını sadaladığımız milli intibaha yol açan maarif-mədəniyyət ocaqları 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri total qırğınlar zamanı fəaliyyətini dayandırmışdır. Bu maarif və mədəniyyət ocaqlarında çalışan azərbaycanlı ziyalıların, müəllimlərin, təhsil alan tələbələrin bir qismi həmin hadisələr zamanı qəddarcasına qətlə yetirildi, bir qismi isə amansızcasına qətlə yetirilməkdən xilas olmaq üçün öz tarixi və doğma yurdlarını tərk etməyə məcbur oldular.

1920-ci il noyabr ayının 29-da Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra başqa

respublikalarda olduğu kimi, burada da məktəb və maarif probleminə münasibət dəyişdi. Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabr ayının 6-da bütün məktəblərin dövlət ixtiyarına keçməsi, təhsilin ana dilində aparılması haqqında dekret imzaladı. 1921-ci il dekabr ayının 17-də Ermənistan Xalq Maarif Komissarlığının (EXMK) verdiyi əmrə əsasən, köhnə tipli məktəblər ləğv olunaraq, məzmunca yeni tipli Sovet məktəblərinin təşkilinə başlanıldı. Yeni tipli məktəblərin təşkili ilə əlaqədar olaraq 1921-ci il aprel ayının 23-də EXMK-nin verdiyi əmrdə göstərilirdi ki, respublikada yaşayan azərbaycanlılar öz ana dillərində təhsil ala bilərlər. Azərbaycanlı şagirdlərin sayının sürətlə artmasının əsas səbəblərindən biri 1918-1920-ci illərdə erməni daşnaklarının zülmü nəticəsində ən qəddar üsullarla qətlə yetirilməkdən xilas olmaq üçün doğma yurdlarını tərk etmiş soydaşlarımızın Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra bir qisminin yenidən öz vətənlərinə dönməsi ilə bağlı idi.

Azərbaycanlı ziyalılar tərəfindən milli məktəblərimiz üçün pedaqoji kadrlar hazırlayan tədris müəssisəsinin yaradılması ideyası 1922-ci il yanvar ayının 30-da EK(b)P-nin birinci qurultayında qaldırılsa da, onların tələblərinə məhəl qoyulmamışdır. Azərbaycan məktəblərində müəllim çatışmazlığı problemini həll etmək məsələsi yenə də gündəlikdə qalırdı. Azərbaycan məktəbləri üçün pedaqoji kadrların hazırlanması məsələsi Ermənistan Kommunist Partiyasının 1923-cü il mart ayının 29-da keçirilən II Qurultayında yenidən qaldırılsa da, yenə də öz həllini tapmadı. Qurultayda Ermənistanın şovinist dairələri, eləcə də Xalq Maarif Komissarı A.Mravyan Azərbaycan məktəblərini müəllim kadrları ilə təmin etmək üçün Azərbaycandan pedaqoji kadrların dəvət olunmasını daha məqsədəuyğun hesab edirdi. Ermənistanın şovinist dairələri Azərbaycan məktəbləri üçün yerli kadrların hazırlanması məsələsini müxtəlif vasitələrlə əngəlləyirdilər. Burada bolşevik cildinə bürünmüş erməni daşnaklarının ən iyrənc məqsədləri azərbaycanlıların savadlanmasının, mədəni tərəqqisinin və gələcək perspektivlərinin qarşısını hər vasitə ilə almaq idi. Azərbaycan məktəblərini pedaqoji kadrlarla təmin etmək məqsədi ilə 1923-cü ilin ortalarında Azərbaycandan müxtəlif ixtisaslar üzrə müəllim kadrları İrəvana və azərbaycanlılar yaşayan bölgələrə pedaqoji fəaliyyət göstərməyə göndərilirdilər. Əsl erməni xisləti Azərbaycan məktəblərində dərs deyən həmin müəllimlərə dözülməz şərait yaratdığı üçün onlar maddi və mənəvi sıxıntılara dözə bilməyib, Ermənistanı tərk etməyə məcbur olurdular.

Azərbaycan məktəblərində pedaqoji kadrlara olan ehtiyacı qismən də olsa aradan qaldırmaq üçün 1922-ci ildə EXMK-nın nəzdində yaradılmış Azsaylı xalqlar şöbəsinin müdiri Mehdi Kazımovun səyi nəticəsində 1923-cü ilin noyabr ayında İrəvanda 2 aylıq yay hazırlıq kursu təşkil edilmişdir. Bu hazırlıq kursunda Azərbaycan məktəbləri üçün 60-dan artıq müəllim hazırlanmışdır. Bundan başqa, Uluxanlıda, Vedidə, Basarkeçərdə, Zəngəzurda, Ağbabada və azərbaycanlıların yaşadığı digər bölgələrdə də hazırlıq kursları təşkil edilmişdir. Bir çox pedaqoji kadrlar, məhz belə kurslarda təhsil almaqla püxtələşmişdir. 1923-cü ilin sonlarında təşkil olunmuş bu hazırlıq kurslarında 1926-cı ilədək 143 müəllim hazırlanmışdır ki, onlardan da 6 nəfəri qadın idi. Bu kursların təşkilində İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin aparıcı nümayəndələrindən olan Bala Əfəndiyevin, Mehdi Kazımovun, Mustafa Hüseynovun və başqalarının böyük rolu olmuşdur.

Müəllim çatışmazlığı problemini az da olsa aradan qaldırmaq məqsədi ilə Azərbaycan Xalq Maarif Komissarlığının razılığı əsasında İrəvandan Bakıya 1923-cü ildə 16, 1925-ci ildə isə 38 nəfər pedaqoji təhsil almaq üçün müxtəlif ali təhsil müəssisələrinə göndərilmişdir. Zəhra Abbasova, Tacirə Bağırova kimi gənclər Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən sonra İrəvana qayıdaraq maarifin inkişafına öz töhfələrini verirdilər.

Görülən bu tədbirlər müəllim kadrlara olan tələbatı ödəyə bilmirdi. Ermənistanın şovinist dairələri Azərbaycan məktəbləri üçün müəllimlər hazırlayan müstəqil tədris müəssisəsinin açılmasını istəmir, Erməni Pedaqoji Texnikumunun nəzdində Azərbaycan şöbəsinin açılmasını istəyirdilər. Müəllim çatışmazlığı probleminin aradan qaldırılması işini qaydaya salmaq üçün yerli kadrlar hazırlayan təhsil müəssisəsinin yaradılmasının təxirəsalınmaz tələbat olduğunu aydın dərk edən EK(b)PMK-nin nəzdində fəaliyyət göstərən Azsaylı xalqlar şöbəsinin müdiri Bala Əfəndiyevin, EXMK-nın “Azlıqda qalan millətlər” bürosunun rəhbəri Mehdi Kazımovun, “Zəngi” qəzetinin məsul redaktoru Mustafa Hü-

seynovun və başqa qeyrətli azərbaycanlı ziyalıların erməni şovinist dairələri qarşısında təkidli tələbi, ciddi səyi, siyasi və milli iradəsi sayəsində 1924-cü ilin oktyabr ayının 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı. Bu təhsil ocağı 1925-ci ildə Nəriman Nərimanov adına İrəvan Türk Pedaqoji Texnikumu adlandırıldı. Beləliklə, İrəvan Türk Pedaqoji Texnikumunun açılması ilə Azərbaycan məktəblərində müəllim kadrlara olan ehtiyacın aradan qaldırılması işinin müəyyən dərəcədə qaydaya salınması sahəsində ilk addım atıldı. Texnikumun ilkin fəaliyyət dövrünə nəzər saldıqda məlum olur ki, Mehdi Kazımov direktor və rus dili müəllimi, Bala Əfəndiyev ictimaiyyət müəllimi, Əsgər Əsgərzadə ana dili müəllimi, Cəmil Əliyev təbiət müəllimi, Kərim Məhərrəmov isə texniki işlər üzrə köməkçi kimi fəaliyyət göstərmişlər.

Araşdırmalardan məlum olur ki, İrəvanda bütün Azərbaycan məktəblərində olan problemlər bu texnikumda da mövcud idi. Erməni Pedaqoji Texnikumunun binasında fəaliyyət göstərən bu maarif ocağı 30 nəfər tələbəni əhatə edən darısqal bir sinif və iki yataq otağından ibarət idi. Yeni təşkil olunmuş İrəvan Türk Pedaqoji Texnikumunun tamamilə əlverişsiz və dözülməz bir şəraitdə fəaliyyət göstərməsi, dərslik və dərs vəsaitləri, tədris proqramları, laboratoriyalar, fənn kabinetləri, yataqxana, yeməkxana və s. avadanlıqlarla təchiz edilməməsi, sözsüz ki, bu təhsil ocağının normal fəaliyyətini əngəlləyirdi.

Sovet Ermənistanının daşnak hakimiyyəti Erməni Pedaqoji Texnikumunu müstəqil bina ilə təmin etdiyi, hərtərəfli diqqət və qayğı göstərdiyi halda, Türk Pedaqoji Texnikumu isə bu qayğılardan məhrum idi. Bu ayrı-seçkilik siyasəti bir tərəfdən Ermənistanda Sovet hakimiyyətinin öz spesifik xüsusiyyətlərinə malik olduğunu göstərirdisə, digər tərəfdən də erməni kommunistlərinin sözdə bir, əməldə tamamilə əks prinsiplərdən çıxış etməsində özünü büruzə verirdi. Çünki başqa respublikalardan fərqli olaraq, Ermənistanda sosial mühitin, partiya həyatının, milli siyasətin iki – görünən və görünməyən tərəfi var idi. Görünən tərəf – "proletar beynəlmiləlçiliyi", "bolşevizm ideyalarının həyata keçirilməsi", görünməyən tərəf isə rəsmi Ermənistan rəhbərliyinin gizli surətdə həyata keçirdiyi şovinist və antitürk siyasəti idi.

Varlığının ilk günlərindən Türk Pedaqoji Texnikumu çox böyük çətinliklərlə üz-üzə qalmışdır. Lakin bütün bu çətinliklərə və ciddi maneələrə baxmayaraq, yeni təşkil olunmuş texnikumun möhkəmləndirilməsi, fəaliyyətinin canlandırılması, müəllim və tələbə kontingentinin formalaşdırılması, tədrisin təşkili və s. həlli vacib olan məsələlər qeyrətli ziyalılarımızın – Azsaylı xalqlar şöbəsinin müdiri B.Əfəndiyevin, texnikumun direktoru M.Kazımovun, "Zəngi" qəzetinin məsul redaktoru M.Hüseynovun və başqalarının qarşısında duran ən mühüm məsələ idi.

Texnikumun ilkin fəaliyyət dövrünə nəzər saldıqda pedaqoji heyətin, tədrisin təşkili və s. sahələrdə müəyyən irəliləyişin olduğu məlum olur. Qısa zaman ərzində bu maarif ocağının ətrafına Əşrəf Bayramov, Əsgər Əsgərzadə, Bülbül Kazımova, Miryusif Mirbabayev, Məhəmməd Əzimzadə, İsmayıl Babayev kimi ziyalılar toplaşmağa başladı. Qeyd etmək lazımdır ki, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyev ilk əmək fəaliyyətinə bu texnikumda başlamışdır. O, 1926-27-ci illərdə bu təhsil ocağında kimya-biologiya fənnini tədris etmişdir. Həmin dövrlərdə görkəmli alim-pedaqoq Lətif Hüseynzadə də bir müddət texnikumda müəllim kimi fəaliyyət göstərmişdir.

1918-1920-ci illərdə ermənilər tərəfindən azərbaycanlıların kütləvi şəkildə soyqırımına məruz qalması İrəvan ədəbi-mədəni mühitinin tənəzzülə uğramasına səbəb oldu. Ədəbi-mədəni mühitin görkəmli nümayəndələrinin bir qismi məhv edilmiş, bir qismi isə amansızcasına qətlə yetirilməkdən xilas olmaq üçün Türkiyə, İran, Azərbaycan, Orta Asiyaya və başqa ölkələrə üz tutmuşdular. Bununla da İrəvanda yaşlı nəslə mənsub ziyalı qalmadığından nəsillər arasında sələf-xələf münasibətləri tamamilə pozulmuşdur. Şübhəsiz, bütün bunlar da İrəvan ədəbi məktəbinin yaradıcı potensialına təsir etməyə bilməzdi.

İrəvanda Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Zəngi" (1924) qəzetinin azərbaycanlılar arasında yayılmasında və tirajının artırılmasında, yeni türk əlifbasının tətbiqində və təbliğində, savadsızlığın aradan qaldırılmasında texnikumun müəllim və tələbə heyəti çox böyük rol oynamışdır. "Zəngi" qəzetinin ən aktiv müxbirləri və təbliğatçıları da, məhz bu təhsil ocağının müəllim və tələbələri idi. Tağı Camalov, Mehdi Bəşirov, Rüstəm Tağıyev, Nəriman Fəxri, Telman

Nəzərli, Yunis Tağıyev, Qasım Əliyev, Əbülfət İbrahim, Əliqulu Səlimov, Abbas Tahir, Əbülfət Rəhimov, Adil Axundov, Musa Qafarov, Nurəli Qurbanov, Şamo Hətəmov, Nəzər Paşayev, Məmməd Paşayev və başqaları "Zəngi" qəzetinin ən fəal müxbirləri idi.

1927-ci ildə Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin nəzdində təşkil olunmuş Azərbaycan bölməsinin canlandırılması və genişləndirilməsində də bu tədris ocağının böyük xidmətləri olmuşdur. 1929-cu ilin iyun ayında texnikumun ilk buraxılışı oldu. 1926-cı ildə qəbul olunmuş 32 tələbədən 20 nəfəri texnikumu bitirməyə müvəffəq ola bilmişdir ki, onlardan da 18-i oğlan, 2 nəfəri isə gənc qızlar idi. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, tələbələrdən 3 nəfəri təhsil aldığı müddətdə ağır və yoluxucu xəstəliyə tutularaq dünyasını dəyişmiş, 9 nəfəri isə müxtəlif səbəblərdən təhsilini yarımçıq qoyaraq texnikumu tərk etməyə məcbur olmuşdur. Bununla yanaşı, texnikumun ilk məzunları arasında Əmir Abasquluyevi, Adil Axundovu, Nəriman Əliyevi, Paşa Makinskini, Əbülfət İbrahimi, İmanqulu Kərimovu, Nəriman Fəxrini, Rübabə Bağırbəyovanı, Nəsir Əliyevi, Musa Qafarovu, Əbülfət Rəhimovu, Tağı Bağırovu, Nəzər Paşayevi, Mirzə Bəşirovu göstərmək olar.

Azərbaycan məktəblərində müəllim kadrlara böyük tələbat olduğu halda, yüzlərlə azərbaycanlı müəllim və tələbələrə "bəy", "xan", "mülkədar", "qolçomaq", "kulak", "mövhumatçı", "millətçi" və s. damğası vurulur və onlar təhsil müəssisələrindən xaric edilirdilər. "Təmizləmə komissiyası" adlandırılan yoxlama zamanı "ictimai mənşəyi təşkilata uyğun gəlmir" adı ilə texnikumun tələbələri Mikayıl Əliyev, Fəraməz Kazımbəyov, Xəlil Əfəndiyev, Ələkbər Həsənzadə, Fərhad Əsgərov, Tərifə İsmixanova, Əli Xəlilov, Məhəmməd Rzayev, Məhərrəm Xəlilov, Əkbər Cabbar, Qədimalı Vəliyev, Ənvər Qaziyev, Ağayar Həsənov, Məmmədəli Əsədov, Oruc Şumalov, Fərman Kazımov, Ziyad Şərifov və başqaları "kulak" kimi aşkar olunaraq texnikumdan xaric edilmişdilər. Azərbaycanlı ziyalılar nəinki repressiyaya, həmçinin fiziki terrora da məruz qalırdılar.

Fəaliyyəti dövründə İrəvan Türk Pedaqoji Məktəbi təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamışdır. Bolşevik cildinə bürünmüş erməni daşnaklarının məkrli siyasəti nəticəsində təhsil tariximizin ən şanlı səhifələrindən birini təşkil edən böyük, şərəfli tarixi bir yol keçmiş bu təhsil ocağı da kollektiv şəkildə deportasiyaya məruz qoyularaq, 1949-cu ildə Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna köçürülmüş, 1972-ci ilədək orada fəaliyyət göstərmişdir. Bu il həmin təhsil müəssisələrinin bəzilərinin yaranmasından 190, bəzilərindən isə 140 il keçir. Bu dövr ərzində çar və sovet Rusiyasının İrəvan Xanlığının bazasında yaratdıqları İrəvan quberniyası, Ermənistan SSR və Ermənistan respublikası daim dağıdıcılıqla məşğul olmuş, bu ərazilərin müsəlman türk simasının itirilməsi üçün hər cür vandallığa əl atmışlar.

Düşünürəm ki, həmin təhsil müəssisələrinin yubileylərinin keçirilməsi həm xalqımızın keçmiş ictimai, mədəni, maarifçi irsinə ehtiram olardı, həm də 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti sayəsində erməni qəsbkarlığına "dur!" deməsi ilə yeni siyasi tarixi situasiyaya dəstək olardı. Bu gün əsas vəzifə Ermənistan Respublikasının həmin ərazilərdə bizim tarixi keçmişimizi silmək üçün apardığı siyasətə İrəvan məktəblərinin yubileylərini keçirməklə layiqli cavab vermək olar. Həm ictimai-siyasi, həm milli-maarifçilik, həm də İrəvan ziyalılarının o zaman ölkəmizin müstəqilliyi və inkişafına göstərdikləri xidmətlərinin də qiymətləndirilməsi baxımından bu yubileylərin dövlət səviyyəsində geniş qeyd edilməsi beynəlxalq milli siyasi əhəmiyyətə malikdir.

**Nəticə.** 1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır.

Prezident İlham Əliyevin İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyinin keçirilməsi ilə əlaqədar imzaladığı Sərəncam da, bu seminariyanın tarixdə necə dərin bir iz qoyduğunun sübutudur.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. 7 cilddə, IV cild (XIX əsr). Bakı, Elm, 2000, 503 səh.
2. Azərbaycan Müəllimlərinin Qurultayları. Bakı, Çaşıoğlu, 2008, 784 səh.
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il, yeni əsr, yeni üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti.
4. Ağayev Ə., Rzayev V. Güney Qafqaz xalqlarının pedaqoji əlaqələri tarixindən. Bakı, Təhsil, 2004, 136 səh.
5. Cəfərov C.Ə., Allahverdiyev C.V. İrəvanda milli maarifçilik mühiti. Bakı, 2017.
6. Əhmədov H.M. Seçilmiş pedaqoji əsərləri. 30 cilddə, IV cild, Bakı, Təhsil, ABU, 2006, 580 səh.
7. Əhmədov H.M. Şərəfli yol. Xəbərlər (pedaqoji və psixoloji elmlər seriyası) 2009, №2, səh.12-21.
8. Əhmədov H.H., Bayramov H.B. Çarizmin Azərbaycanı işğalından sonra yeni tarixi-maarifçi transformasiyasının paradiqması. “Azərbaycan müəllimi” qəzeti, 15 aprel 2022-ci il.
9. Mərdanov M.C. Azərbaycan təhsil tarixi. 4 cilddə, I cild, Bakı, 2011, 296 səh.
10. Məhərrəmov Z. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit). Bakı, Nurlan, 2010, 320 səh.
11. Rüstəmov F.A. Pedaqogika tarixi. Bakı, Nurlan, 2006, 748 səh.
12. Rzayev V.V. Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəlləri). Naxçıvan, 2018, 392 səh.
13. Кавказский календарь на 1881 год: Издании отъ канцелярии Кавказского намиъстника. Тифлисъ, 1880, 1096 с.
14. Zeynalov Ə. İrəvan məktəbləri. Bakı, Mütərcim, 2011, 56 səh.


**H.Ahmadov**

## Moral support of our national education history–Iravan Teachers Seminary


**Abstract**

The spread and development of pedagogical science in Azerbaijan, which is a whole period of public education, is connected with the work of graduates of Gori and Yerevan Teachers' Seminaries. The article says that many representatives of public education, school, literature, culture, and art received their first pedagogical education at Gori and Yerevan Teachers' Seminaries.

The place and role of these educational institutions in our history of national education are researched and studied today. The order signed by Mr. President Ilham Aliyev in connection with the 140th anniversary of the Yerevan Teachers' Seminary is evidence of the deep history of this seminary.


**Г.Ахмедов**

## Ираванская Учительская Семинария нравственная опора нашей национальной истории образования


**Аннотация**

Распространение и развитие педагогической науки в Азербайджане, целый период народного образования связаны с деятельностью выпускников Горийской и Ираванской учительских семинарий. В статье говорится, что многие представители народного просвещения, школы, литературы, культуры и искусства получили свое первое педагогическое образование в Горийской и Ираванской учительских семинариях.

Место и роль этих учебных заведений в истории нашего отечественного образования до сих пор изучаются и исследуются. Распоряжение, подписанное Президентом Ильхамом Алиевым по случаю 140-летия Ираванской учительской семинарии, является доказательством того, насколько глубоко эта семинария оставила свой след в истории.